# "Olimpiya Evi"ndə növbəti görüş

XXXIII Yay Olimpiya Oyunları çərçivəsində Parisdə fəaliyyət göstərən "Olimpiya Evi"ndə Azərbaycan idmançılarının qələbəsinə həsr olunmuş görüş təşkil olunub. Tədbirdə rəsmi şəxslər, Olimpiadada ölkəmizi təmsil edən idmançılar, məşqçilər, media təmsilçiləri, müxtəlif ölkələrin nümayəndələri və digər şəxslər iştirak ediblər.



Tədbirdə XXXIII Yay Olimpiya Oyunlarının çempionları - cüdoçularımız Hidayət Heydərov və Zelim Kotsoyev böyük sevinc və alqışlarla qarşılanıb, qələbələri münasibətilə təbrik ediliblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan Olimpiya Hərəkatında ən əlamətdar gün olduğunu qeyd edib. "Azərbaycan cüdo üzrə ilk dəfədir ki, 2 qızıl medal qazanıb. Ölkəmizin cüdo üzrə 73 kq və 100 kq çəki dərəcələrində həmişə qalib gəlməsi əlamətdar hadisədir. Əminik ki, bu çəki dərəcələrində Azərbaycan həmişə qızıl medal qazanacaq.

Tədbirin bədii hissəsində gənc müğənni Mərdan Bandın ifasında müxtəlif, bir-birindən maraqlı Azərbaycan musiqiləri səsləndirilib.

---

Azərbaycan.- 2024.- 3 avqust (№ 163).- S.11.